ŞAHLAR BABA ŞUŞALI

# MƏN TANIYAN XAN ƏMİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Nərgiz NƏŞRİYYATI

BAKI-2016

# Xan və Füzuli

Zəhmət və sənət, sənət və şöhrət, şöhrət və səadət kimdə bir-birini tamamlayırsa o, əbədiyaşarlığa qovuşur. Əzəmətini, ucalığını ulu dağlar kimi əbədi saxlaya bilir. Xan Əmi dağ idi. 78 illik ömründə qamətini, yerişini, uca ləyaqətini dəyişmədi. Dünyaya Xan kimi gəldi, Xan kimi yaşadı və Xan kimi də əbədiləşdi.





Xan Əmi öz ifasında xəyal və düşüncəsini, arzu və istəklərini, ruh və ilhamını ləyaqət və məharətlə ömrünün fiziki sonuna qədər qoruyub saxlaya bildi. Aydın məsələdir ki, yaş artdıqca insan qocalır, qocaldıqca keyfiyyət dəyərləri azalır. Xan Əmidə isə bu keyfiyyətlər heç vaxt azalmadı. Deyirdi ki, gərək fikirləşməyəsən adamlar mənim üçün nə etməlidir, fikirləşməlisən ki, mən məni sevən, qoruyan adamlar üçün nə

etməliyəm. Təkcə qəlbindən keçənlərə yox, gərək layiq olduğuna nail olmağa çalışasan.

O, gözəllikləri, təbii ki, həm də gözəlləri tərənnüm edən lirik qoşma və bayatıları da fəlsəfi həqiqətləri də, bəşəri hiss və məziyyətləri tərənnüm edən qəzəlləri də yüksək sənətkarlıqla muğamın əsrarəngiz çalarlarına, özünün səs məlahətinə bələməklə dinləyicilərini məftun edə bilirdi. Adama elə gəlirdi müəllif həmin yazını elə Xan Əminin oxuması üçün yazıb. O, isə həmin yazılara yeni həyat verirdi. Bunu yəqin etmək üçün məşhur Füzulinin: "Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim!"-misrasını onun ifasında dinləmək bəs edər.

### *FÜZULİ-XAN*

*Böyük eşqimizdə böyük Füzuli,*
*Böyük muğamatda vardı Xan Əmi.*
*Füzuli sənətin məhəbbət dili,*
*Orada rübabdı, tardı Xan Əmi.*

*Tapa bilmək üçün Xan adlı səsi,*
*Dörd yüz il yol gəldi Füzuli sözü,*
*Nəğməyə döndüsə Füzuli özü*
*Sözə səs naxışı vurdu Xan Əmi.*

*Füzuli qəzəlin nur ləhcəsiydi,*
*Xan sözün muğamat bələdçisiydi,*
*Füzuli haqqın söz möcüzəsiydi,*
*Səsdə mələklərə yardı Xan Əmi.*

*Füzuli sözünü oxuyaraq hey,*
*Ətrin ləçək-ləçək qoxuyaraq hey,*
*Səsin mayasına toxuyaraq hey,*
*Sənətdə qalalar qurdu Xan Əmi.*

*Öz ana dilidir Füzuli dili,*
*Bu dilə kökləndi Xanın səs teli,*
*Nə yaxşı dünyada vardı Füzuli,*
*Nə yaxşı, nə yaxşı vardı Xan Əmi!..*

Dünyaya gələn Tanrı verən ömrü yaşayır və vaxtı çatanda dünyadan köçür. Yaşanan ömrün əsl dəyər və qiymətini isə sahibi özü qazanır. Əlbəttə qismət də var, ancaq "hərəkət-bərəkət" məsəlini unutmaq olmaz. Hansı sənət sahibi olursanol, ancaq qədirbilənliklə, yorulmadan o sənətin əsl zəhmətkeşi, cəfakeşi olmaqla istədiyin uğuru qazana bilərsən. Xan Əmi sənətdə ilk addımını atmağa başlayan andan onun əsl zəhmətkeşi və cəfakeşi olmuşdur. O, və onun kimilər oxuyarkən özlərindən əvvəlkiləri və ya müasirlərini yamsılamağa çalışmırdılar. İfa etdikləri hər hansı bir musiqi növündə, nəinki sələflərini, heç özlərini də təkrar etmirdilər. İfa etdiklərini hər dəfə sanki yenidən yaradırdılar. O, danışırdı ki, istər konsert olsun, istər toy, çox vaxt çalışırdıq ki, bu gün vurduğumuz nəfəs və xalları, eləcə də sözləri eyni muğamda sabah olduğu şəkildə təkrar etməyək. Hətta bəzən səhərə qədər yatmır, yeni xal, nəfəs, zəngulə forması fikirlərşir, söz öyrənirdik. Axı, savad öyrənməkdə təkrar gözəl olsa da, oxumaqda xüsusilə muğam oxuyanda xal, nəfəs və sözlərin lazım olduğundan çox təkrarı dinləyicini yorur, zövq vermir. Bu həqiqətən belədir. Hamımız dəfələrlə bəzi müğənnilərin belə ifasının şahidi olmuşuq. Çox vaxt gözəl bir mahnının nəqarətini saqqız kimi o qədər təkrar edirlər ürəkləri ovsunlayan bir nəğməyə qarşı belə tələbkar dinləyicidə biganəlik yaranır. Deyirdi ki, mahnının hər hansı hissəsini mahnı kimi oxumaq lazımdır. Saqqız kimi çox çeynəyib çürütmək olmaz. Müğənnini müğənni kimi tanıdıb-sevdirən xüsusiyyətdən biri də oxunan sözlərin (qəzəl, qoşma və s.) aydın tələffüzüdür. Dinləyici müğənninin sözləri necə tələffüz etməsindən asılı olaraq şairin nə demək istədyini aydın dinləyib, dərk etməlidir. Hər muğamın məna mahiyyətinə görə isə şeir forması seçilməlidir. Bir sözlə, Tanrı verən istedad və qabiliyyətini layiqincə qoruyub, layiqincə də işlədə bilsən sənətdə istədiyin uğuru qazanmaq o qədər də çətin olmaz.